| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 09.03.2011 |
| QEYDİYYAT NÖMRƏSİ | 38 |
| ADI | “Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2011, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 232) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 09.03.2011 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 290.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanmasını tənzimləmək məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin aidiyyəti orqanlarla razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan SSR yaşayış məntəqələrində əhalinin qeyri-məhsuldar ev heyvanları saxlamasını qaydaya salmaq haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il 10 oktyabr tarixli 458 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 9 mart 2011-ci il
38

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 9 mart tarixli 38 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması

### Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının (bundan sonra - ev heyvanları) saxlanma şərtlərini, onların saxlanılmasına nəzarəti, heyvan sahibinin hüquq və vəzifələrini və digər qaydaları müəyyən edir.

1.2. Ev heyvanları saxlayan şəxslər (bundan sonra - şəxslər) ərazinin epizootoloji sabitliyini və insanların sağlamlığını qorumağa borcludurlar.

1.3. *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik)* , *dövlət sanitariya nəzarəti*, daxili işlər və yerli icra hakimiyyəti orqanları şəxslərin bu Qaydalara əməl etmələrinə nəzarəti həyata keçirirlər.[1]

1.4. Şəxslərə məxsus ev heyvanlarının yoluxucu xəstəliklərə qarşı peyvəndlənmələrini, diaqnostik müayinələrini, digər baytarlıq-sanitariya tədbirlərini təşkil etmək məqsədi ilə onların *Agentliyin regional bölməsində* uçota alınmaları (identifikasiya olunması) insanların sağlamlığı və ərazinin epizootoloji sabitliyinin qorunması baxımından yerinə yetirilməsi vacib olan mühüm dövlət baytarlıq tədbiridir.[2]

1.5. Ev heyvanlarının xarici ölkəyə aparılması *Agentliyin regional bölməsinin* baytarlıq şəhadətnaməsinin (sertifikatının) və müvafiq pasportun tərtib olunması ilə həyata keçirilir.

1.6. Ev heyvanlarının müayinəsi, müalicəsi yalnız baytar həkimləri tərəfindən həyata keçirilir.

### 2. Heyvanların saxlanması şərtləri

2.1. Baytarlıq, sanitaiya-gigiyena, səs-küy və digər normaları pozmamaqla, şəhərdə və şəhərtipli qəsəbələrdə çoxmərtəbəli binaların ayrıca mənzillərində yaşayan hər bir ailəyə qonşulara narahatlıq yaratmamaq şərtilə bir it və iki pişik saxlamağa icazə verilir.

2.2. Baytarlıq və *dövlət sanitariya nəzarəti orqanların* rəsmi razılığı əsasında "canlı təbiət" guşələrində, *uşaqlar üçün sosial xidmət müəssisələrində*, yay və qış idman-sağlamlıq ocaqlarında, sanatoriya-kurort müəssisələrində (istirahət evlərində, pansionatlarda və s.) ev heyvanlarını saxlamaq olar.[3]

2.3. Şəhərdə və şəhərtipli qəsəbələrdə lazımi qaydada çəpərlənmiş və təcrid olunmuş ərazilərdə itlərin sərbəst gəzintisi təşkil edilə bilər.

2.4. Təşkilatlarda, idarələrdə, müəssisələrdə gözətçi itlər yalnız xüsusi yerlərdə saxlanmalıdır.

2.5. İri cins itlərin (senbernar, ovçarka, doq, boksyor, endelteryer, doberman-pinçer və s.) və digər heyvanların sahibləri mənzillərin, təşkilatların qapılarına it, yaxud vəhşi heyvan şəkilləri və "Təhlükəlidir" sözü yazılmış lövhələr vurmağa borcludurlar.

### 3. Ev heyvanı saxlayan şəxslərin hüquqları

3.1. Heyvan sahibi ev heyvanlarının saxlanması ilə bağlı aşağıdakı hüquqlara malikdir:

3.1.1. insanların sağlamlığının qorunması məqsədi ilə itləri ancaq kiçik cilovda, iri cins itləri isə cilovda və buruntaqda olmaqla ümumi məhəllələrdə və yaxud küçələrdə gəzdirmək;

3.1.2. itləri sürülərdə və naxırlarda, xüsusi təşkilatların operativ işlərində, ovda, təlim, məşq meydançalarında

cilovsuz və buruntaqsız saxlamaq;

3.1.3. bu Qaydaların 3.1.1-ci yarımbəndinə riayət etməklə, ev heyvanlarını su, hava, dəmir yolu və avtomobil nəqliyyatında (şəhərlərarası avtobuslarda) aparmaq;

3.1.4. yerli icra hakimiyyəti orqanı tərəfindən ayrılmış xüsusi meydançalarda itləri cilovsuz və buruntaqsız gəzdirmək;

3.1.5. sağlamlığını və mənşəyini təsdiq edən pasportu, baytarlıq şəhadətnaməsi, eləcə də müəssisənin müdiriyyətinin razılığı olduqda, ev heyvalarını mehmanxanada saxlamaq.

**4. Məhdudiyyətlər**

4.1. Heç bir şəxs ev heyvanı ilə qəddar davranmamalı, onlara ağrı, yaxud zərər verməməli və heyvanları müvafiq orqanlara xəbər vermədən sahibsiz vəziyyətə salmamalıdır.

4.2. Ev heyvanı onun sağlamlığına zərər vura biləcək üsullarla təlim edilməməlidir.

4.3. Heç bir heyvan 18 yaşa çatmamış şəxsə, həmin şəxsin valideynlərinin və ya onu himayə edən şəxslərin yazılı razılığı olmadan satıla bilməz.

4.4. Ev heyvanlarının saxlanması ilə bağlı aşağıdakılar qadağandır:

4.4.1. insanın həyatı və sağlamlığı üçün təhlükəli olan vəhşi heyvanların, ilanların çoxmərtəbəli binaların mənzillərində və malikanə tipli evlərdə saxlanması;

4.4.2. ev heyvanlarının ictimai yerlərdə, binaların ümumi istifadə yerlərində saxlanması və qidalandırılması;

4.4.3. ev heyvanlarının ictimai iaşə müəssisələrində, ərzaq məhsullarının istehsal sahələrində və ticarət obyektlərində, bazarlarda, çimərliklərdə, habelə *uşaqlar üçün sosial xidmət müəssisələrində* saxlanması və gəzdirilməsi;[4]

4.4.4. baytarlıq şəhadətnaməsi olmadıqda, yaxud şəhadətnamədə itlərin quduzluğa (digər xəstəliklərə) qarşı peyvənd olunması göstərilmədikdə, onların satılması və bağışlanması, nəqliyyat vasitələri ilə respublika daxilində bir yerdən başqa yerə aparılması;

4.4.5. şəhərdə və şəhərtipli qəsəbələrdə ayrı-ayrı yaşayış sahələrində çoxmərtəbəli binaların arasında iri və xırda buynuzlu heyvanların yetişdirilməsi, saxlanması;

4.4.6. *Agentliklə* razılaşdırılmadan ev heyvanlarının yarışlarının keçirilməsi;[5]

4.4.7. sərxoş vəziyyətdə (alkoqollu içkilərdən, narkotik vasitələrdən və ya digər güclü təsir edən maddələrdən istifadə etməklə) olan şəxs tərəfindən ev heyvanlarının gəzdirilməsi;[6]

4.4.8. ev heyvanlarının insanların üzərinə saldırılması;

4.4.9. yarış vaxtı və ya heyvanın sağlamlığı və rifahı üçün təhlükə yarada bilən digər hallarda ev heyvanlarının təbii imkanlarının artırılması, yaxud azaldılması məqsədi ilə onlara preparatların verilməsi, tibbi və texniki üsulların tətbiq edilməsi;

4.4.10. *qanunla müəyyən edilmiş hallar istisna olmaqla,* ev heyvanlarının xarici görkəmini dəyişdirmək məqsədi ilə və ya digər qeyri müalicəvi məqsədlə cərrahi əməliyyatların (qulaqlarının kəsilməsi, devokalizasiya, dırnaq və dişlərin çıxarılması və s.) aparılması.[7]

4.5. Baytar həkiminin rəyinə əsasən qeyri-müalicəvi proses heyvanın faydası üçün və ya baytarlıq-sanitariya tibbi baxımından lazım olduqda, habelə axtalama məqsədi ilə bu Qaydaların 4.4.10-cu yarımbəndində nəzərdə tutulan cərrahi əməliyyatlar aparıla bilər. Əməliyyat zamanı heyvan şiddətli ağrılar keçirməli olacaqsa, bu əməliyyatlar yalnız baytar həkimi tərəfindən (onun nəzarəti altında) anesteziya edilməklə həyata keçirilir. Tələb olunan əməliyyatlar müvafiq qanunvericiliyə uyğun olaraq səlahiyyətli şəxs tərəfindən edilə bilər.[8]

4.6. Ev heyvanlarının ticarəti, damazlığı, kommersiya, yaxud digər məqsədlə sığınacaqlarda (heyvan mehmanxanasında) saxlanması üzrə məşğul olan hər bir hüquqi və fiziki şəxs bu fəaliyyətini səlahiyyətli icra hakimiyyəti orqanları ilə (*Agentlik*, yerli icra hakimiyyəti, *dövlət sanitariya nəzarəti orqanları*) müvafiq qaydada razılaşdırmalıdır.[9]

**5. Ev heyvanı saxlayan şəxslərin vəzifələri**

5.1. Ev heyvanı saxlayan və ya ona baxan hər bir şəxs həmin heyvanın növünə və cinsinə uyğun olaraq, yaşayışı üçün yer ayırmalı, təbii tələbatlarını nəzərə alaraq, ona aşağıdakı qayğıları göstərməlidir:

5.1.1. heyvana lazımi səviyyədə yem və su verməli;

5.1.2. heyvanın nəzarətsiz qalmaması və qaçmaması üçün müvafiq tədbirlər görməli;

5.1.3. *Agentlikdə* qeydiyyatda olan baytarlıq klinikalarında, itçilik klubunda öz heyvanlarını ildə bir dəfə müayinədən keçirməli;[10]

5.1.4. baytarlıq xidmətində ev heyvanları üçün quduzluğa qarşı müalicə-profilaktik tədbirləri həyata keçirməli;[11]

5.1.5. lazım olmayan heyvanları sahibsiz heyvanları saxlayan müəssisəyə təhvil verməli;

5.1.6. heyvanlar xəstələndikdə, insanları, heyvanları dişləmə və zədələmə halları müşahidə edildikdə, onlara baxmaq və karantində saxlamaq üçün *Agentliyin regional bölməsinə* müraciət etməli; [12]

5.1.7. ölmüş heyvanların cəsədlərini utilləşdirmək və basdırmaq üçün sahibsiz heyvanları qəbul edən məntəqəyə təhvil verməli;

5.1.8. ətraf mühitin çirklənməsinə yol verməməli, ərazini baytarlıq qaydaları və normativlərinə uyğun saxlamalı.

5.2. Ev heyvanlarının sahibləri həmin heyvanlarla bir yerdən başqa bir yaşayış yerinə köçərkən, həmin yaşayış məntəqəsinin baytarlıq xidmətinə 5 gün müddətində məlumat verməlidir.

5.3. Ev heyvanları tərəfindən adamların dişlənməsi zamanı onlara dəyən ziyan və müalicə xərcləri heyvan sahibi tərəfindən ödənilməlidir.

**6. Heyvanlarla qəddar rəftara görə məsuliyyət**

6.1. Heyvanlarla rəhmsizcəsinə davranaraq, onları şikəst və ya tələf edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunurlar.

6.2. Küçələrdə, bazarlarda, bağçalarda, bulvarda, çimərliklərdə, nəqliyyat vasitələrində və digər ictimai yerlərdə sahibsiz itlər, pişiklər, hətta cins itlər (xaltalı, jetonlu, buruntaqlı) sahibsiz heyvanlar saxlayan müəssisələr tərəfindən götürülməlidir. "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasının tələblərinə uyğun olaraq, ixtisaslı mütəxəssislərin nəzarəti altında xüsusi vasitələrlə sahibsiz ev heyvanlarının ovlanması təşkil olunur.

6.3. Sahibsiz heyvanları qəbul edən təşkilat 5 gün müddətində cins heyvanın kimə məxsus olması təsdiq edildikdə (~~qeydiyyat vəsiqəsi,~~ baytarlıq şəhadətnaməsi və s.), heyvanın sağlamlığına dair baytar həkiminin verdiyi müsbət rəydən sonra onu sahibinə qaytarmalıdır.[13]

6.4. Yoluxucu xəstəliklərə tutulmuş ev heyvanları (o cümlədən, sahibsiz heyvanlar) insan həyatı, yaxud ərazinin epizootoloji sabitliyi üçün təhlükə törətdikdə, baytar həkiminin rəyinə əsasən müəyyən edilmiş üsullarla öldürülərək məhv edilə bilər.

## 7. Heyvanların saxlanması qaydalarının pozulmasına görə məsuliyyət

7.1. Ev heyvanlarını saxlayan və ya ona baxmaq üçün razılıq verən hər bir şəxs həmin heyvanın sağlamlığına görə məsuliyyət daşıyır.

7.2. Heyvanı damazlıq üçün götürən hər bir şəxs onun nəslinin sağlamlığına zərər vura biləcək anatomik, fizioloji və davranış xüsusiyyətlərinin düzgün nəzərə alınması baxımından məsuliyyət daşıyır.

7.3. Ev heyvanlarının sahibləri, müəssisə və təşkilatın vəzifəli şəxsləri heyvanların saxlanması şərtlərini pozduqda, qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar.

## 8. Heyvanların saxlanması qaydalarına nəzarət

8.1. Şəhərdə, şəhərtipli qəsəbələrdə, digər yaşayış sahələrində heyvanların saxlanma qaydalarına nəzarət yerli icra hakimiyyəti, daxili işlər orqanları, *dövlət sanitariya nəzarəti orqanları* və baytarlıq idarələri tərəfindən aşağıdakı qaydada həyata keçirilir:[14]

8.1.1. yerli icra hakimiyyəti orqanları yaşayış sahələrində şəxslərin öhdəsində olan heyvanların (it, pişik və s.) baytarlıq uçotunda olmasını nəzarətdə saxlayır;[15]

8.1.2. daxili işlər orqanları müvafiq qanunvericilik aktlarına uyğun olaraq, heyvanların saxlanması haqqında qaydaları pozan şəxslər barədə tədbirlər görülməsi üçün *Agentliyin regional bölməsinə* məlumat verir;[16]

8.1.3. baytarlıq idarələri hüquqi və fiziki şəxslərə məxsus *heyvanlarda (it, pişik və s.)* təlimata uyğun olaraq peyvəndləmələri, diaqnostik müayinələri, digər baytarlıq-sanitariya tədbirlərini və insan həyatı üçün təhlükəli xəstəlikləri olan itlərin, digər heyvanların məhv edilməsində baytarlıq xidmətini təşkil edir, heyvanların saxlanması qaydalarını pozan şəxslər haqqında müraciət daxil olduqda, qanunvericiliyə əsasən müvafiq tədbirlər görür və sahibsiz heyvanların ovlanmasında *müvafiq tədbirlərin görülməsini* təmin edir;[17]

8.1.4. *dövlət sanitariya nəzarəti orqanları* nəzarət etdikləri ərazi üzrə ev heyvanlarının saxlanması zamanı sanitariya-gigiyena norma və qaydalarının pozulmasına səbəb olan halların aradan qaldırılması üçün müvafiq tədbirlər görür.

## 9. Heyvan saxlamaq hüququndan məhrum etmə

Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, müvafiq qaydaları mütəmadi olaraq pozan və nöqsanların aradan qaldırılmasını təmin etməyən heyvan sahibləri haqqında dövlət *sanitariya nəzarəti orqanının* və *Agentliyin regional bölməsinin* təqdimatına əsasən yerli icra hakimiyyəti orqanı həmin şəxsi ev heyvanı saxlamaq hüququndan məhrum etmək məqsədi ilə məhkəməyə müraciət edir.[18]

## 10. Sahibsiz heyvanlarla mübarizə tədbirləri

10.1. Sahibsiz heyvanlara qarşı mübarizə tədbirlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

10.2. Sahibsiz heyvanlar problem yaratdıqları halda əziyyətlərə, ağrılara məruz qoymayan üsullarla onların sayının azaldılması üçün zəruri tədbirlər həyata keçirilir.

10.3. Tutulan sahibsiz heyvanlar müvafiq sığınacaqlarda saxlanılmalıdır.

10.4. Ev heyvanlarının sayının planlaşdırılmamış artımı sterilləşdirilmə (axtalama) vasitəsilə azaldılmalıdır.

10.5. Heyvanlar quduzluğa, insan həyatı üçün təhlükəli olan digər xəstəliklərə tutulduqda və ya insanların həyat və sağlamlığı üçün təhlükə yaratdıqda məhv edilirlər.

10.6. Müxtəlif səbəblərdən ölmüş heyvanların cəsədlərinin məhv edilməsi baytarlıq nəzarətində olan heyvan qəbiristanlığında, yaxud mərkəzləşdirilmiş util zavodunda aparılır.

10.7. Ev heyvanlarının əzab çəkməsinə son qoymaq məqsədi ilə onlar məhv edilə bilərlər.

## 11. İnformasiya və maarifləndirmə

11.1. Yerli icra hakimiyyəti orqanı, *Agentlik* ev heyvanlarının saxlanması, damazlığı, təlimi, ticarəti və himayəsi ilə məşğul olan şəxsləri maarifləndirməli və onlarla müvafiq təbliğat işi aparmalıdırlar.[19]

11.2. Maarifləndirmə proqramlarında aşağıdakılara diqqət yetirilməlidir:

11.2.1. ev heyvanlarının kommersiya və ya yarış məqsədi ilə təliminin bu sahədə bilik və bacarığa malik olan şəxslər tərəfindən aparılmasına;

11.2.2. ev heyvanlarının 18 yaşa çatmamış şəxslərə, onların valideynlərinin və ya valideyn öhdəliklərini icra edən şəxslərin razılığı olmadan hədiyyə kimi verilməsinə;

11.2.3. ev heyvanlarının mükafat və ya bonus kimi hədiyyə verilməsinin yolverilməzliyinə;

11.2.4. arzuolunmaz və sahibsiz heyvanların sayının artması riskinə gətirib çıxaran ev heyvanlarına məsuliyyətsiz sahibliyə.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**)
2. 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227** )
3. 16 dekabr 2016-cı il tarixli **507** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 dekabr 2016-cı il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2226**)
4. 1 dekabr 2018-ci il tarixli **519** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 dekabr 2018-ci il, 275**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2722**)
5. 23 may 2019-cu il tarixli **238** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 may 2019-cu il, 115 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 971**)
6. 9 aprel 2020-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2020-ci il, 68 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 482**)
7. 21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** )
8. 30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 1.3-cü bənddə "**Ərazi baytarlıq idarələri**" sözləri "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik)**" sözləri ilə əvəz edilmişdir.

30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nda 1.3-cü bənddə "**sanitar-epidemioloji**" sözü "**dövlət sanitariya nəzarəti**" sözləri ilə əvəz edilmişdir.

[2] 1 dekabr 2018-ci il tarixli **519** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 dekabr 2018-ci il, 275**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2722** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 1.4-cü bəndində "**ərazi baytarlıq idarələrində**" sözləri, 1.5-ci bənddə "**ərazi baytarlıq idarəsinin**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölməsi**" sözləri ilə əvəz edilmişdir.

21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 1.4-cü, 1.5-ci bəndlərdə və 5.1.6-cı yarımbənddə "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin**" sözləri "**Agentliyin**" sözü ilə əvəz edilmişdir.

[3] 9 aprel 2020-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2020-ci il, 68 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 482**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 2.2-ci bənddə "**uşaq və yeniyetmə müəssisələrində**" sözləri "**uşaqlar üçün sosial xidmət müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 2.2-ci, 4.6-cı bəndlərində və 8.1.4-cü yarımbəndində ismin müvafiq hallarında "**sanitar-epidemioloji orqanlar**" sözləri ismin müvafiq hallarında "**dövlət sanitariya nəzarəti orqanları**" sözləri ilə əvəz edilmişdir.

[4] 9 aprel 2020-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2020-ci il, 68 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 482**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.4.3-cü yarımbənddə "**uşaq müəssisələrində**" sözləri "**uşaqlar üçün sosial xidmət müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[5] 21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.4.6-cı yarımbənddə "**ərazinin baytarlıq xidməti orqanı ilə** " sözləri "**Agentliklə**" sözü ilə əvəz edilmişdir.

[6] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 4.4.7-ci yarımbəndində "ev heyvanlarının" sözlərindən əvvəl "olan şəxs tərəfindən" sözləri əlavə edilmişdir.

[7] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 4.4.9-cu və 4.4.10-cu yarımbəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi.

~~4.4.9. yarış vaxtlarında və digər hallarda heyvanın sağlamlığı və rahatlığı üçün təhlükə yarada bilən təbii imkanlarının artırılması, yaxud azaldılması məqsədi ilə onlara preparatların verilməsi, tibbi və texniki üsulların tətbiq edilməsi;~~

~~4.4.10. qeyri-müalicəvi məqsədlə ev heyvanlarının xarici görkəmini dəyişdirmək üçün cərrahi əməliyyatların (quyruğunun, qulaqlarının kəsilməsi, devokalizasiya, dırnaq və dişlərin çıxarılması) aparılması.~~

-

16 dekabr 2016-cı il tarixli **507** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 dekabr 2016-cı il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2226**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.4.10-cu yarımbəndinə "**ev heyvanlarının**" sözlərindən əvvəl "**qanunla müəyyən edilmiş hallar istisna olmaqla**," sözləri əlavə edilmişdir.

-

[8] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 4.5-ci bəndinin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi.

~~Heyvanın faydası üçün qeyri-müalicəvi proses baytarlıq-sanitariya tibbi baxımından lazım olduqda, baytar həkiminin rəyinə əsasən aparıla bilər.~~

-

[9] 23 may 2019-cu il tarixli **238** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 may 2019-cu il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 971**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.6-cı bəndində "**Baytarlıq Xidməti**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.6-cı, 11.1-ci bəndlərdə və 5.1.3-cü yarımbənddə ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi**" sözləri ismin müvafiq hallarında "**Agentlik**" sözü ilə əvəz edilmişdir.

[10] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 5.1.3-cü yarımbəndində "**qeydiyyatdan**" sözü "**müayinədən**" sözü ilə əvəz edilmişdir.

13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 5.1.3-cü yarımbəndində və 11.1-ci bəndində ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Xidməti**" sözləri ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ilə əvəz edilmişdir.

1 dekabr 2018-ci il tarixli **519** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 dekabr 2018-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2722** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 5.1.3-cü yarımbəndindən və 11.1-ci bənddən "**Nəzarəti**" sözü çıxarılmışdır.

-

[11] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 5.1.4-cü yarımbəndində "**ev heyvanlarını müayinədən keçirməli, quduzluğa qarşı müalicə-profilaktik tədbirlər həyata keçirməli**" sözləri "**ev heyvanları üçün quduzluğa qarşı müalicə-profilaktik tədbirləri həyata keçirməli** " sözləri ilə əvəz edilmişdir.

-

[12] 1 dekabr 2018-ci il tarixli **519** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 dekabr 2018-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2722** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 5.1.6-cı yarımbəndində "**baytarlıq müəssisələrinə**" sözləri **"Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölməsinə**" sözləri ilə əvəz edilmişdir.

[13] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 6.3-cü bəndindən mötərizədəki "**qeydiyyat vəsiqəsi,**" sözləri çıxarılmışdır.

-

[14] 30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 8.1-ci bəndində "**sanitar-epidemioloji**" sözü "**dövlət sanitariya nəzarəti orqanları**" sözləri ilə əvəz edilmişdir.

[15] 19 oktyabr 2011-ci il tarixli **166** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 10, maddə 972**) ilə 8.1.1-ci yarımbəndində "**qeydiyyatında**" sözü "**uçotunda**" sözü ilə əvəz edilmişdir.

-

[16] 21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** ) ilə 8.1.2-ci yarımbənddə və 9-cu hissədə ismin müvafiq hallarında "**ərazi baytarlıq idarələri**" sözləri ismin müvafiq hallarında "**Agentliyin regional bölməsi**" sözləri ilə əvəz edilmişdir.

[17] 1 dekabr 2018-ci il tarixli **519** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 dekabr 2018-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2722** ) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 8.1.3-cü yarımbəndində "**heyvanların (it, pişik və s.) uçota alınmasını, onlarda** " sözləri "**heyvanlarda (it, pişik və s.)**" sözləri ilə və "**dövlət baytarlıq nəzarətini**" sözləri "**müvafiq tədbirlərin görülməsini**" sözləri ilə əvəz edilmişdir.

[18] 30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il,  10, maddə 1194**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 9-cu hissəsində "**sanitariya-epidemioloji**" sözü "**sanitariya nəzarəti orqanının**" sözləri ilə əvəz edilmişdir.

[19] 23 may 2019-cu il tarixli **238** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 may 2019-cu il,  115 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il,  5, maddə 971**) ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 5.1.3-cü yarımbəndində və 11.1-ci bəndində ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Xidməti**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi** " sözləri ilə əvəz edilmişdir.